EaP | Eastern Partnership

# Evdə enerjidən istifadənin azaldılmasına sərmayə qoyuluşu

Enerjinin səmərəliliyi Aİ üçün prioritet sahələrdən biri olduğu üçün bu qurum Şərq Tərəfdaşlığı regionunda enerjidən istifadəni azaltmağa yönəlmiş bir sıra təşəbbüslərə maliyyə dəstəyi göstərir.

Mənzilinizin enerjiyə qənaət baxımından səmərəli olmasına sərmayə qoymaqla, daha az enerji haqları ödəyəcək, daha çox rahatlıq və dəyəri artan əmlaka sahib olacaqsınız. Əhəmiyyətli miqdarda sərmayə ixtisaslaşmış səriştə tələb etdiyindən, evinizdə **enerji auditinin** aparılması, mənzilin zəif cəhətlərinin müəyyənləşdirilməsi və adı çəkilən zəif cəhətlərin iqtisadi cəhətdən ən səmərəli yolla **aradan qaldırılması** üçün mütəxəssislə əlaqə saxlayın.



## İri miqyaslı dəyişiklik üçün bəzi tədbirlər

Enerjinin səmərəliliyinə dair yüksək standartlara uyğun olaraq binanı **tam izolyasiya edin** və istilik itkisini **20-30%** azaldın.

Binanın xaricində olan havanı nəzərə alan **avtomatlaşdırılmış hava tənzimləmə sisteminə malik mərkəzləşdirilmiş istilik sistemi** quraşdırın və bu yolla enerji israfını **15-40%** azaldın.

Enerji itkisini **10-12%** azaltmaq məqsədilə zirzəmini izolyasiya edin və **su keçirməz materiallarla örtün**.

**Xarici divarları və damı izolyasiya edərək** enerji israfını **20-30%** azalda bilərsiniz.

İsti suya olan tələbatı ödəmək üçün evin damında **günəş enerjisi ilə çalışan kollektor** quraşdırın.

Enerjinin səmərəliliyini **50%**-dən çox artırmaq üçün **istilik nasosları** quraşdırın.

.

** Təqdim edilən rəqəmlər orta hesabla götürülmüşdür və qənaət edilən enerjinin miqdarı fərqli ola bilər.*

www.EU4Energy.eu

EU4Energy